*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s. 19-24*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p. 19-24*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с. 19-24*

**UOT: 159.955.3:373.3:371.1**
https://doi.org/10.30546/670832.2025.01.903

# İbtidai sinif şagirdlərinin psixi inkişafında hafizə proseslərinin düzgün tənzimlənməsində müəllimin rolu və fəaliyyəti

**Müəllif(lər):**
**Kamal Camalov**
Naxçıvan Müəllimlər İnstitutu
Pedaqogika elmləri doktoru, professor
**E-poçt:** kamal.camalov@gmail.com
https://orcid.org/0000-0003-1977-7250

**Açar sözlər:** şagirdin psixikasında diqqət və hafizənin formalaşdırılması; kiçik yaşlı məktəblilərin hafizə və qavrayışlarının qüvvətlənməsinə səbəb olan amillər; əyani vasitələrlə aparılan dərslər zamanı yaddasaxlamanın, yadasalmanın bir-birini mütəmadi olaraq əvəz etməsi yolları

**Annotasiya**. Bu məqalədə ibtidai sinif yaşlı uşaqlarda yaddaş və diqqət proseslərinin formalaşmasında müəllimin pedaqoji təcrübəsinin rolu və bu sahədə nəzərə alınmalı olan psixoloji-pedaqoji amillər araşdırılır. Məqalənin aktuallığı ondan ibarətdir ki, müasir tədris şəraitində şagirdlərin fərdi hafizə xüsusiyyətlərinin düzgün müəyyənləşdirilməsi və təlim prosesinə uyğunlaşdırılması təhsil uğurunun əsas şərtlərindən biri kimi çıxış edir. Tədqiqatın məqsədi uşaqlarda hafizə tipini nəzərə alaraq tədris prosesində onların yadda saxlamasını asanlaşdıran və möhkəmləndirən metodları üzə çıxarmaq və sistemləşdirməkdir. Elmi-nəzəri təhlil, müşahidə, ümumiləşdirmə və sintez metodları ilə aparılan tədqiqat zamanı görmə, eşitmə və kinestetik hafizə tiplərinin xüsusiyyətləri öyrənilmiş, emosional vəziyyət, iradi amil, motivasiya və əyani vəsaitlərin yaddaşın inkişafına təsiri təhlil edilmişdir. Məqalədə təkrarın pedaqoji əhəmiyyəti, məlumatların qısamüddətli hafizədən uzunmüddətli hafizəyə keçməsi, məşqlərin səmərəliliyi və təlimin ritmik təşkili məsələləri üzərində geniş dayanılmışdır. Əldə olunan nəticələr həm ümumtəhsil məktəbləri, həm də pedaqoji elmi-tədqiqat fəaliyyəti üçün praktik əhəmiyyət daşıyır.

**Author(s):**
**Kamal Jamalov**
Nakhchivan Teachers Institute
Doctor of Pedagogical Sciences, Professor
**E-mail:** kamal.camalov@gmail.com
https://orcid.org/0000-0003-1977-7250

**Key words:** development of attention and memory in the student's psyche; factors strengthening the memory and perception of young schoolchildren; pedagogical approaches ensuring the systematic alternation of memorization and recall during visually supported instruction.

## The role and professional activity of the teacher in the effective regulation of memory processes in the psychological development of primary school students

**Abstract.** This article explores the significance of the teacher's pedagogical practice in shaping memory and attention processes among primary school–aged children. It also examines the psychological and pedagogical factors that should be taken into account when supporting students' cognitive development. The relevance of the study stems from the fact that, under contemporary educational conditions, accurately identifying the individual memory characteristics of learners and adapting the instructional process accordingly is regarded as one of the essential determinants of academic success. The primary objective of the research is to identify and systematize instructional methods that, with due consideration of children's memory types, facilitate and reinforce effective retention of learning material. Employing methods such as theoretical analysis, observation, generalization, and synthesis, the study investigates the characteristics of visual, auditory, and kinesthetic memory types. Additionally, it analyzes the impact of emotional states, volitional factors, motivation, and the use of visual aids on the development of memory processes. Particular emphasis is placed on the pedagogical significance of repetition, the mechanisms governing the transfer of information from short-term to long-term memory, the effectiveness of structured practice, and the rhythmic organization of instructional activities. The findings of the study hold practical value for both general education schools and scholarly research in the field of pedagogy.

**Автор(ы):**
**Кямал Джамалов**
Нахчыванский институт учителей
Доктор педагогических наук, профессор
**Э-почта:** kamal.camalov@gmail.com
https://orcid.org/0000-0003-1977-7250

**Ключевые слова:** формирование внимания и памяти в психике ученика; факторы, способствующие укреплению памяти и восприятия младших школьников; запоминание, узнавание, воспроизведение и забывание как основные процессы памяти

## Роль и деятельность учителя в правильной регуляции процессов памяти в психическом развитии младших школьников

**Аннотация.** В данной статье рассматривается роль педагогического опыта учителя в формировании процессов памяти и восприятия у детей младшего школьного возраста и психолого-педагогические факторы, которые необходимо учитывать в этой области. Актуальность статьи заключается в том, что в современных условиях обучения одним из основных условий успешности обучения выступает правильное выявление и адаптация к учебному процессу индивидуальных особенностей обучающихся. Целью исследования является выявление и систематизация методов, облегчающих и закрепляющих их запоминание в процессе обучения детей с учетом типа памяти. В ходе исследования методами научно-теоретического анализа, наблюдения, обобщения и синтеза изучались особенности типов памяти - зрительных, слуховых и кинестетических, анализировалось влияние эмоционального состояния, волевого фактора, мотивации и наглядных пособий на развитие памяти. В статье широко освещены вопросы педагогической значимости повторения, перехода информации от кратковременной памяти в долговременную, эффективности упражнений и ритмической организации обучения. Полученные результаты имеют практическое значение как для общеобразовательных школ, так и для педагогической научно-исследовательской деятельности.

**Məqalənin aktuallığı:** Məqalədə şagirdin psixikasında diqqət və hafizənin formalaşdırılmasında müəllimin pedaqoji təcrübəsindən istifadə hazırkı dövr üçün aktual problemlərdəndir. Kiçik yaşlı məktəblilərin hafizə və qavrayışlarının qüvvətlənməsinə səbəb olan amilləri düzgün müəyyənləşdirmək hər bir müəllim üçün vacib və zəruridir. Ona görə də kiçik yaşlı məktəblilərin duyğu və qavrayışlarının qüvvətlənməsinə səbəb olan amillər haqqında elmi araşdırmalar aparılmasına və məqalələr yazılmasına ehtiyac duyulmaqdadır.

**Məqalənin elmi yeniliyi:** Məqalədə məktəblilərin hafizə və yaddasaxlamanın qüvvətlənməsinə səbəb olan amillər; məktəblinin fərdi xüsusiyyətləri; müəllim tərəfindən verilən informasiyaların qısamüddətli hafizədən uzunmüddətli hafizə fonduna keçməsi kimi problemlər müəyyənləşdirilir. Həmçinin şagirdə verilən biliyin bir neçə dəfə necə təkrar edilməsi və müvafiq olaraq təlim başa çatana kimi uşağın yaddaşında nəqşləndirilməsi; əyani vasitələrlə aparılan dərslər zamanı yaddasaxlamanın, yadasalmanın bir-birini mütəmadi olaraq necə əvəz etməsi yolları üzə çıxarılaraq tədqiq-təhlil obyektinə çevrilir.

**Məqalənin praktik əhəmiyyəti:** Məqalədə irəli sürülən ideya və tövsiyələrdən, fikir və görüşlərdən ali və ümumtəhsil məktəb müəllimləri, tərbiyəçi-müəllimlər, pedaqogika və psixologiya sahəsində tədqiqat aparan doktorantlar, monoqrafiya, dərslik və dərs vəsaitləri hazırlayan müəllimlər faydalana bilərlər.

**Giriş.** İlk öncə qeyd edək ki, böyük yaşlının psixi fəaliyyəti kimi, uşağın da psixikası çox mürəkkəbdir və cürbəcür formalarda üzə çıxır. Həqiqətdə isə psixi hadisələrin üzə çıxması hər zaman bir-biri ilə sıx surətdə əlaqədar olur. Ehsas və qavrayış izsiz itib-batmır.

Biz mənimsənmiş obrazı öz şüurumuzda yenidən canlandıra bilərik. Bir zaman bilavasitə mənimsənmiş obrazın şüurda belə canlandırılmasına təsəvvür deyilir. Təsəvvür ehsasdan solğun, daha az konkret, az canlı, az düzgün olur, lakin şüur təsəvvürsüz işləyə bilməz. İnsan şüuru getdikcə genişlənən böyük miqdar təsəvvür toplamağa qadirdir. Lakin insanın şüurunda hər müəyyən anda müəyyən miqdar təsəvvür, fikir canlana bilər: bu canlanma insanın həmin anda nə ilə məşğul olmasından asılı olur. İnsan şüuru birinci plana bəzi təsəvvürlər, fikirlər canlandırıb digərlərinin qabağını pərdələyə bilər. Şüurda canlandırılmış təsəvvür real cismin bilinməsi ilə birləşir: cisim haqqında bizdə düzgün təsəvvür varsa, biz onu asanlıqla tanıyırıq. Qavrayışların real predmet obrazları şəklində, insan şüurunda möhkəmlənməsi kimi özünü göstərən insanın psixi funksiyasına hafizə deyilir. “Hafizənin təkmilləşdirilməsi ilə bağlı çoxsaylı metodikalar işlənmiş, tövsiyələr hazırlanmışdır” [1, səh.251].

Məktəblinin psixi inkişafında hafizə çox böyük rol oynayır. Bu yaşda uşaqların əsas fəaliyyəti – təhsil işi, bilik və vərdişlərin toplanmasından və mənimsənilməsindən ibarətdir. Burada hafizə böyük iş görməlidir. Kiçik yaşlı məktəblilər artıq şüurlu və məqsədli öyrənmək bacarığına malikdirlər. Uşaqlardan ötrü də, yadda yaxşı saxlamaq üçün labüd şərt öyrənilən şeyə düşüncəli yanaşmaq, onu aydın və dürüst anlamaqdır. Uşaqlar öyrəndikləri şeylərin hisslərini hiss etmişlərsə, həyatda, kitab səhifələrində, dəftərlərdə, asan mənimsənən aydın şəraitdə görmüşlərsə, onu daha yaxşı mənimsəyərlər. Hələ vaxtilə Yan Amos Komenski yazırdı ki, “Tədris üsulu... həmişə təbii olmalıdır. Çünki təbii olan hər şey öz-özünə inkişaf edir. Maili müstəvi üzərində suyu aşağı axmağa məcbur etməyə ehtiyac yoxdur, bəndi və ya ümumiyyətlə suyu saxlayan maneəni gördükdə, o dərhal üzü aşağı axacaqdır. Quşu da qəfəsdən uçurmaq üçün məcbur etməyə ehtiyac yoxdur – yalnız qəfəsin qapısını açmaq kifayət edər” [2, səh.123].

İbtidai məktəbin şagirdləri öyrənilən şeyin hissələri arasında məntiqi əlaqə yaratmaqla öyrənmək bacarığına malikdirlər. 11 və 14 yaş arasında hafizə daha şiddətlə inkişaf edir. Ancaq bundan sonrakı illərdə də öyrənməyə qabiliyyəti artır.

Kiçik yaşlı məktəblilər bir də mexaniki öyrənmə adlanan bacarıqdan çox böyük dərəcədə istifadə edirlər, yəni onlar sadə təkrar yolu ilə öyrənirlər və öyrəndikləri şeyi anlayırlar. Əlbəttə məntiqi yolla, yəni öyrənilənı qabaqca öyrənilmişlə, öyrənilənlərin elementləri arasında məntiqi əlaqə yaratmaqla öyrənmə daha dəyərlidir. Böyüklər məntiqi yolla öyrənirlər, buna görə də onlar tez yadlarında saxlayırlar. Məktəb, uşağın tez məntiqi yolla öyrənməsinə kömək etməlidir.

Pedaqoji praktikada yalnız məktəb yaşlı

bütün uşaqlarda ümumi olan xüsusiyyəti deyil, fərdi hafizə xüsusiyyətləri də nəzərə alınmalıdır.

Uşağı, nə növ ehsası yaxşı hafizəsində saxlaması nöqteyi-nəzərindən bu və ya başqa tip hafizə sırasına daxil edirlər. "...Aparılan təlim prosesində görmə və eşitmə analizatorları xüsusi rol oynayırlar. Duyğu və qavrayışlar təlim prosesində bu analizatorlar vasitəsilə daha çox fəaliyyət göstərirlər" [3, səh.121].

Görmə tipi, görmə vasitəsilə şeyləri hafizələrində daha yaxşı saxlayır; belə uşaq kitabdakı materialı ucadan oxumaqdan artıq, onu öz-özünə oxumaqla daha yaxşı yadında saxlayır. Kitabda və ya dəftərlərdə oxunmuş materialı yadına saldıqda, o, həmən materialın harada və necə çap edildiyini yaxud yazıldığını yadına salır.

Eşitmə tipi, eşitmə vasitəsilə mənimsənmiş olduğu materialı daha asan və daha uzun zaman yadlarında saxlayırlar.

Hərəkət tipi, motor; yəni hərəkəti qavrayışlar köməyi vasitəsilə (qeyd, qrafik şəklində göstərmək, səslə demə, toxunma vasitəsilə mənimsəmə) daha asan öyrənər.

Ancaq bu tiplərə təmiz halda təsadüf edilmir. Məsələn, uşaqda görmə hafizəsi üstün yer tuta bilər, lakin bu halda onda eşitmə hafizəsi də olur, hətta hərəki ehsaslar da onun yadda saxlanmasına kömək edir.

Buna görə də pedaqoq burada aşağıdakı nəticələri çıxarmalıdır: əvvəla, yeni materialı uşaqlara cürbəcür orqanların köməyi ilə, cürbəcür üsullarla mənimsətməlidir; ikinci, pedaqoq müstəqil iş təşkil edərkən hafizə tipi üzrə uşağın fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Başqa sözlə desək "hafizənin proseslərini müqayisə edərkən, onların funksional istiqamətləri bir-birinə zidd görünsə də, həmin prosesləri vəhdətdə nəzərdən keçirmək zəruridir" [4, səh.310].

Mətnin (və ya tekstin) öyrənilməsi cisimlərin və ya sadə, realistik xarakterdə, şəkillərin göstərilməsi ilə bərabər aparıldıqda material uşaqların hafizəsində daha yaxşı möhkəmlənir. Bu da tədris işində əyanilik tətbiq edilməsinin zəruri olduğunu göstərir. Yan Amos Komensi qeyd edir ki, "Hər şeyi səbəbləri göstərə-göstərə öyrətmək, hər şeyi ağlın dəlilləri ilə möhkəmlətmək deməkdir, yəni hər şeyin necə əmələ gəldiyini göstərmək deyil, eyni zamanda bu şeyin nə üçün başqa cür ola bilməyəcəyini də göstərməkdən ibarətdir. Çünki müəyyən bir şeyi bilmək – onu səbəb əlaqələrində dərk etmək deməkdir. Biz istəyirik ki, şagirdlər bütün sözlərin mənşəyini, ifadələrin (və söz birləşmələrinin) bütün əsasını və sənətlər sahəsindəki qaydaların əsaslarını aydın şəkildə və asanlıqla öyrənsinlər" [2, səh.145].

Yadda saxlamaq üsulu nöqteyi-nəzərindən üç növ təhsil materialı var:

a) Bir çox dəfə xüsusi təkrar tələb etməyən material; məsələn, mental arifmetikanın hər hansı bir əməliyyatı birinci izahatdan anlaşılırsa, bundan sonra həmən əməliyyat, keçən dəfə olduğu kimi sadəcə xatırlama vasitəsilə yerinə yetirilir; sonra bu əməliyyatı canlandırmaq vərdişi, onun daima praktiki surətdə tətbiq edilmə nəticəsində avtomatik bir xarakter alır (Buradakı avtomatizm əlbəttə şərti avtomatizmdir: lazım gəldiyi halda şagird nə üçün başqa cürə deyil, belə etdiyinin səbəbini izah etməlidir).

b) Anlaşılmaqla bərabər bir çox dəfə təkrar tələb edən material; məsələn, şeirlər, formulalar, sitatlar, bəzi qanun və qaydaları öyrənmək.

c) Yadda saxlamanı asanlaşdıran və xüsusi üsullar tələb edən material, məsələn, xronoloji tarixlər, coğrafiya adları.

Pedaqoq yadda saxlama işini asanlaşdırmağa və uşaqlar tərəfindən öyrənilmiş şeylərin hafizədə möhkəm qalmasına kömək etməyə çalışaraq, qənaətlə öyrənmənin müəyyən şərait və qaydalarını nəzərə almalıdır; ona görə ki:

a) Yadda saxlamanın keyfiyyəti çox halda uşağın daxili orqanik vəziyyətindən asılı olur, yəni sağlam, normal dərəcədə tox, yorulmayan uşaq yaxşı mənimsəyir və yaxşı yadında saxlayır.

b) Uşaqlar müəllim tərəfindən işə həvəsləndirildikdə yaxşı yadlarında saxlayır və onların diqqəti dərsin mövzusu ətrafında yaxşı toplandıqda, bu diqqət bütün dərs müddətində sabit qaldıqda onlar maraqla işləyirlər.

c) Gözəl əhval-ruhiyyə şəklində meydana gələn emosional vəziyyət yadda saxlamanı yaxşılaşdırır; yüksək əhval-ruhiyyə ifrat gərginliyə keçirsə, yadda saxlamanın yaxşı keyfiyyətli olmasına kömək edir; alçaq və ya aşağı əhval-ruhiyyə yadda saxlamanı xarab edir.

ç) Öyrənmə məqsədinin uşaqlar tərəfindən bilinməsi və bu biliyə nail olmaq inamı yadda saxlamanın yaxşı olmasını təmin edir.

Yadda saxlamada iradə momentinin çox

böyük əhəmiyyəti vardır. Bir adama müəyyən mətni (və ya teksti) oxumağa təklif etmişlər, ancaq həmən mətni yadda saxlamaq lazım olduğunu ona deməmişlər. O oxuduqdan sonra ona "yadınızda bir şey qaldımı?" – deyə soruşmuşlar. O da təəccüblə "Məgər mən yadımda saxlamalı idim?" – deyə cavab vermişdir. Onun bu işdə iradəsi olsa idi, o mətni yadında saxlardı. Deməli pedaqoq uşaqlarda yadda saxlamağa iradə yaratmalıdır.

d) Uşaqlar rahat mənimsənən formada verilən materialı daha yaxşı xatırlarında saxlayırlar, yəni şrifti aydın, iri ölçülü olan , aydın və qəşəng xətlə yazılan mətni yaxşı mənimsəyirlər; kitabda, dəftərdə, yazı taxtasında düzgün verilmiş material, mühüm cəhəti aydın göstərilən və düzgün yaradıcılıqla və başqa üsul ilə verilən material daha yaxşı mənimsənilir.

e) Hər hansı bir şeyi hissə-hissə deyil, ancaq bütünlükdə öyrənmək lazımdır. Psixoloji araşdırmalar göstərir ki, müəyyən materialı hissə-hissə öyrənərkən materialı bütünlükdə öyrənməkdə olduğundan artıq təkrar lazım gəlir. Yenə də araşdırma göstərmişdir ki, böyük material bütünlükdə öyrənildikdə çox zaman keçdikdən sonra yadda onun böyük faizi qalır, hissə-hissə öyrənildikdə isə az faizi qalır. Əlbəttə çox böyük material ayrənilirsə, onu bir neçə böyük bütün hissələrə ayırmaq lazımdır.

ə) Öyrənmə əsasında təkrarların vaxta görə bölünməsinin çox böyük əhəmiyyəti var. Materialı bir seansda öyrənmək üçün, təkrarın bir neçə seansa bölünməsindən daha artıq təkrar tələb edilir. Təkrar uzun müddətə bölünmüşsə onlar yadda daha möhkəm saxlanılır, bu halda material gec unudulur.

f) Materialın bölünməsinə və ya qurulmasına daxil edilən ritmika vasitəsilə yadda saxlamanı çox asanlaşdırmaq olur; məsələn, öyrənilən elementlərin bir qruppalara toplanması, bunların quruluşunda bir simmetriya yaradılması və başqa öyrənməni çox asanlaşdırır.

Sual oluna bilər! Öyrənmə zamanı miemotexnika və ya mismonika (yadda saxlamanı asanlaşdırmaq məharəti) vasitələrindən istifadə etmək olarmı?

Miemonika hafizəni inkişaf etdirmir, möhkəmlətmir, yaxşılaşdırmır; bir də ondan tez-tez istifadə edildikdə məntiqi tip hafizənin inkişafına mane olur, mexaniki tipli hafizənin qalmasına yardım göstərir. Çünki çox halda öyrənmənin mexaniki vəsaitindən istifadə etmək nəticəsini doğurur. Aparılan "müşahidələr göstərir ki, ümumtəhsil məktəblərinin böyük əksəriyyətində çox zaman şagirdlərin perspektiv fəallığına – onların qavrayışının, hafizəsinin fəallığına daha çox üstünlük verilir" [5, səh.176].

Ancaq əzbərçiliyə deyil, bəlkə düşüncəli öyrənmə ilə birləşən miemotik vəsaitdən istifadə etmək olar. Köhnə qrammatika avtorlarının müraciət etdikləri miemotik üsullar çağdaş dövrümüzə cavab verməyən üsullardır. Məsələn, sözlərin şeir şəklində yazılması kimi üsul da həmən bu yararsız üsul sırasına daxildir – bu üsul ancaq vəzn və qafiyə yaradır. Bu kimi şeirdə sözlər asanlıqla öyrənilirdi, ancaq bu əsl əzbərçilikdən ibarət olan mənasız, mexaniki öyrənmə idi.

Yadda saxlama təmrini keçirən məktəblinin hafizəsini inkişaf etdirmək və mükəmməlləşdirmək olar və bunu etmək lazımdır. Yavaş öyrənən və tez yadından çıxaran şagirddə heç də həmişəlik belə hafizə olduğunu güman etmək olmaz. Həmən şagird məşq vasitəsilə yadda saxlamanın yaxşı keyfiyyətinə nail ola bilər. Burada qəribə bir hal var, hər hansı bir sahədə bir şeyi öyrənmək məşqi başqa bir sahədə yadda saxlamanın keyfiyyətinin yaxşılaşmasına səbəb olur. Məsələn, şeir öyrənmək məşqi, riyaziyyat materialının yadda saxlanılmasının keyfiyyətinə yardım göstərir. Psixoloq Limunət Əmrahlı yaddasaxlamanın zəifliyi və səthiliyini əsəb proseslərinin əlaqəsizliyilə də izah edir [6, səh.296]. Pedaqoq, psixoloqların bu fikrini nəzərə almalıdır.

Şagirdlərdə möhkəm vərdişlər yaratmaq üçün ilk tədris zamanlarında məşqlərin düzgün sistematik quruluşunu qaydaya salmaq çox mühümdür. Məsələn, aydın bir işdir ki, arifmetikada elementar vərdişlər nə qədər yaxşı mənimsənilmişsə bu qayda üzrə olan sonrakı işi uşaqlar daha asan və sürətlə yerinə yetirəcəklər.

"Məşq" anlayışının özündə təkrar vardır. Məşq mahiyyət etibarilə təkrardır – sinif və tədris işində cürbəcür tapşırıqları həll edərkən mənimsənilməsi biliyi tətbiq etmək şəklində olan təkrardır.

Bu məşqlər vərdiş qazanmaq məqsədilə olan xüsusi məşqlər olursa, onların təkrarlarını necə təşkil etmək lazımdır?

Araşdırmalar göstərir ki, məşqləri qısa dövrlərə bölmək yaxşıdır. Bu məsələni aydınlaşdırmaq üçün keçirilmiş bir təcrübədə eyni iş dörd sinfə verilmişdi. Siniflərin hərəsi ümumiyyətlə 120 dəqiqə ərzində işləməli idilər. Ancaq birinci sinif altı gün ərzində hər dəfədə 10 dəqiqə olmaqla gündə iki dəfə işləmişdir; ikinci sinif altı gün ərzində gündə bir dəfə olmaqla 20 dəqiqə işləmişdir; üçüncü sinif üç gün ərzində 40 dəqiqə işləmişdir; dördüncü sinif isə arası kəsilmədən 120 dəqiqə işləmişdir. Birinci sinif işi ən çox səmərəli, sonuncu sinfin işi ən az səmərəli olmuşdur.

Bir dəfəlik məşqin dövrünü əlbəttə həddindən artıq qısa etmək olmaz, belə olsa vaxtın çox hissəsi məşqin özünə yox, işə hazırlaşmağa və uyğunlaşmağa sərf edilər. Bir də ayrı-ayrı şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almalıdır. Bəzi uşaqlar işə gec uyurlar, lakin sonralar işi daha yaxşı mənimsəyir və uzun zaman yorulmurlar. Bəziləri işin "üstünə çox tez düşürlər", ancaq tez yorulurlar. Müəllim, məşqin uşaqları yorduğunu görürsə o başqa növ işə keçməlidir. Yorğun vəziyyətdə məşqi davam etdirmək faydasızdır.

Bilik mənimsəməkdə təkrarın əhəmiyyətini yalnız məşğələ ilə əlaqədar olaraq təhlil etmək kifayət deyildir, təkrar çox geniş sahədə tətbiq edilir. Hər cür biliyi möhkəm mənimsəmək və yadda saxlamaq üçün təkrar edilməlidir. Hələ vaxtilə qüdrətli zəka və təkzib edilməz məntiq sahibi Nəsirəddin Tusi "Adabül mütəəllimin" (Tələbəlik mədəniyyəti) adlı əsərində təkrarın faydasını belə əsaslandırırdı: "Elm öyrənən tələbə özünü hazırlamalı, təkrarın həddini yaxşı müəyyən etməli və həmin həddə çatanadək onun qəlbi rahat olmamalıdır. Tələbə dünənki günün dərsini beş dəfə, srağagünün dərsini dörd dəfə, ondan əvvəlki günün dərsini üç dəfə, ondan əvvəlkini iki dəfə və nəhayət, ondan əvvəlki günün dərsini bir dəfə təkrarlamalıdır… Tələbə təkrardan qorxmamalıdır, dərs və təkrar tam qüvvə və fəallıqla həyata keçirilməlidir" [7, səh.71].Buna görə də vərdişə çevrilməyən biliklər üçün də təkrar lazımdır. Məsələn, tarixi hadisələri xronoloji qaydada bilmək, həyat bilgisi, coğrafiyanı bilmək, ədəbi əsərlərin məzmununu bilmək. Biliyi yadda möhkəm saxlamaq üçün təkrarın çox böyük əhəmiyyəti var. Ancaq bu təkrar ilin sonunda və ya uzun zamanlıq rüb dövrünün sonunda olmamalı (bu təkrar da başlıca olaraq sistematiklik məqsədilə lazımdır), bu təkrar gündəlik iş prosesində lazımdır.

Bu xüsusda biz, K.D.Uşinskidə çox mühüm göstəriş tapırıq: "Yaddan çıxmış şeyi yada salmaq məqsədilə olan təkrar artıq təlimin nöqsanını, ümumiyyətlə məktəbdə tədrisin pis olmasını göstərir. Pis məktəb, pis bina kimi daima təmir edilir, düzəlir və heç vaxt yararlı bir halda olmur. Yaxşı məktəb isə keçilmiş şeyi daima təkrar edərək, hər zaman təmirə ehtiyacı olmur. Uşaqlar özləri, öyrənmiş və unutmuş olduqları şeyləri təkrar etməyi sevmirlər və xatırlarında qalmış olan şeyi nağıl etməyi çox sevirlər. Uşaq təbiətinin bu göstərişindən istifadə edin və daima təkrar edin. Bu təkrar unutmanın qarşısını alır və unudulmuş şeyi təkrar etməyə ehtiyac buraxmır. Unutmaq da bir qədər pis vərdişdir; və bir çox şeyi mənasız surətdə öyrənmiş uşaqlar, öyrəndiklərini həmişə unudan uşaqlarda sonralar pis hafizə olur".

"Yaddan çıxarmanın qabağını almaq üçün daima təkrar etmək çox faydalıdır" – ifadəsi çox düzgün nöqteyi-nəzərdir. Bu sözlər, uşaqlarla dolaşıq iş aparan, cari iş zamanında onların biliyini aydınlatmayan, gələcəkdə təkrara çox ümid bəsləyən şəxslər üçün bir xəbərdarlıqdır.

**Material və metodlar**. Tədqiqatın məqsədi ibtidai sinif yaşlı uşaqlarda yaddaşın inkişafı, onun psixoloji xüsusiyyətləri və tədris prosesində yaddaşın səmərəli istifadə olunması yollarını müəyyənləşdirmək olmuşdur. Bu məqsədə çatmaq üçün bir neçə elmi və pedaqoji metoddan istifadə edilmişdir.

İlk olaraq, mövzu üzrə zəngin elmi-nəzəri təhlil aparılmış, bu sahədə tanınmış pedaqoqların və psixoloqların – o cümlədən Yan Amos Komenskinin, Konstantin Dmitriyeviç Uşinskinin, Nəsirəddin Tusinin və Limunət Əmrahlının əsərləri təhlil edilmiş, klassik və müasir yanaşmalar müqayisə olunmuşdur. Eyni zamanda müasir tədqiqatçılar tərəfindən təqdim olunan elmi-pedaqoji mənbələr də öyrənilmiş və ümumiləşdirilmişdir.

Təhlil zamanı mətnanaliz, ümumiləşdirmə və sintez metodlarından istifadə olunmuş, hafizə prosesləri ilə bağlı terminlər, təsnifatlar və metodik yanaşmalar sistemləşdirilmişdir. Uşaqlarda fərdi yaddaş tipləri (vizual, eşitmə, hərəkət və qarışıq tip) üzrə yanaşmalar pedaqoji kontekstdə təhlil olunmuş, bu fərqlərin dərs prosesinə təsiri

nəzərə alınmışdır.

Araşdırmada praktik müşahidə və təcrübədən çıxarılan nəticələrin analizi də istifadə edilmiş, məktəblilərin yadda saxlamasına təsir edən amillər – emosional vəziyyət, təkrarın ritmik quruluşu, əyani vəsaitlərdən istifadə və motivasiya məsələləri kontekstində öyrənilmişdir. Tədris zamanı yaddaşın inkişafına təsir edən mühüm şərtlər (materialın bölünməsi, təkrarın ardıcıllığı, məntiqi əlaqənin qurulması və iradi faktorlar) sistemləşdirilərək ümumiləşdirilmişdir.

Tədqiqatın informasiya bazasını həm psixopedaqoji ədəbiyyat, həm də pedaqoji təcrübəyə əsaslanan müşahidələr və real dərs nümunələri təşkil etmişdir. Nəticə etibarilə, təlimdə hafizənin formalaşdırılması və möhkəmləndirilməsi yolları elmi əsaslarla müəyyən olunmuşdur.

**Nəticə.** Sonda gəldiyimiz nəticə belədir:

1. Hər bir müəllim məktəblilərin duyğu və qavrayışlarının qüvvətlənməsinə səbəb olan amilləri düzgün müəyyənləşdirməli və hər bir məktəblinin fərdi xüsusiyyətlərinə əsasən istifadə etməlidir;
2. Təlim zamanı müəllim tərəfindən verilən informasiyalar qısamüddətli hafizədən uzunmüddətli hafizə fonduna keçməli və burada həmin informasiyalar təhlil edilməlidir;
3. Təlim prosesində verilən bilik bir neçə dəfə təkrar edilməli və müvafiq olaraq təlim başa çatana kimi uşağın yaddaşında nəqşləndirilməlidir;
4. Əyani vasitələrlə aparılan dərslər zamanı yaddasaxlama, yadasalma bir-birini mütəmadi olaraq əvəz etməlidir. Belə olmazsa operativ əməliyyat və ya çəkilən zəhmət öz səmərəsini göstərməyəcəkdir.

**Ədəbiyyat**


1. Psixologiya (Prof. S.İ.Seyidov və prof. M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə). Naxçıvan: Əcəmi, – 2017, – 608 s.
2. Yan Amos Komenski. Böyük didaktika. Bakı: Elm və təhsil, – 2012, – 388 s.
3. Arif Məmmədov. Təlimin psixoloji əsasları. Bakı: Maarif, – 1993, – 296 s.
4. Ümumi psixologiya. – Bakı: Maarif, – 1982, – 496 s.
5. Oruc Həsənli. Təhsilin müasir psixoloji problemləri. – Naxçıvan, Əcəmi, – 2017, – 416 s.
6. Limunət Əmrahlı., Nurəngiz Rzayeva. Uşaq psixologiyası (Dərs vəsaiti). – Bakı: Nurlar, – 2015, – 344 s.
7. Kamal Camalov. Pedaqoji-psixoloji fikrin inkişafı sələflərdən xələflərə (Dərs vəsaiti). – Bakı: ADPU-nun nəşriyyatı, – 2019, – 222 s.


*Məqalə pedaqogika üzrə elmlər doktoru, professor; Fərahim Sadiqov tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 14.01.2025, son daxilolma – 18.02.2025, qəbulolunma – 10.03.2025